# Cavanşir Yusiflidən yeni kitab




Tənqidçi, ədəbiyyatşünas Cavanşir Yusiflinin yeni kitabı nəşr olunub.

Kulis.az-a açıqlama verən müəllif bildirib ki, “Mətn, işarə, məna” adlı kitab dörd bölümdən ibarətdir. Birinci bölüm olan “Formanın müqəddəs sirri”ndə klassik ədəbiyyatvə modern düşüncədə bədii formanın sirlərindən, müəlliflə bədii forma arasındakı münasibətlərdən bəhs olunur. İkinci bölüm - ”Mətnlərin yuxusu”nda bədii mətnlərdə ayrıca diqqəti cəlb edən “yuxu janrından” danışılır. Bu bölümdə Ceyhun Hacıbəylinin fransızca yazılmış “Bir il xəyallarda və bütöv bir ömür” romanı təhlil edilib.

Müəllif bildirib ki, kitabın digər bölümlərindəYusif və Vaqif Səmədoğlunun əsərlərindən və bir sıra müasir Azərbaycan şair, yazıçıların yaradıcılıqlarından danışılıb.

“AYB Kitab” layihəsi çərçivəsində “Mütərcim” nəşriyyatlında çap olunub. “Mətn, işarə, məna” kitabının həcmi 178 səhifədir.

Kaspi 2019.- 2-4 noyabr.- S.9.